İsmayılqızı, Xuraman. Zəfər günü Azərbaycanın taleyinə yazılmış sevinc payıdır / X. İsmayılqızı // İki sahil. - 2020. - 10 dekabr. - № 221. - S. 18.

Bu sevinci xalqımıza yaşadan, Ermənistanı təslimçilik aktını imzalamağa məcbur edən Prezident, Ali Baş Komandan İlham Əliyevə, Azərbaycanın Silahlı Qüvvələrinin əsgər və zabitlərinə minnətdarıq

İkinci Qarabağ müharibəsinin ilk günlərindən Prezident İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı bu birliyin qarşısıalınmaz gücünü göstərdi. Məkrli düşmənlə üz-üzə döyüşlərdə işğalçıya tarixi dərs verən Milli Ordumuzun sarsıdıcı zərbələrindən qorxuya düşən, hələ də özünə gələ bilməyən Ermənistan təkcə hərb meydanında deyil, diplomatiyada, informasiya müharibəsində də Azərbaycana yenildi.

Ermənistanın baş naziri Nikol Paşinyanın « Qarabağ Ermənistandır, nöqtə» sərsəmləməsinin qarşısına qətiyyətli «nida»sı ilə əbədilik nöqtə qoyan Prezident İlham Əliyev müstəqillik tariximizin qürur yaşadan zəfərini təmin etdi. Artıq «Dağlıq Qarabağ termini», «status» sözü arxada qaldı, müstəqilliklə bağlı iddialara, «Artsax»a son qoyuldu. Rusiya Prezidenti Vladimir Putin «Rossiya 1» telekanalına müsahibəsində də bu məsələyə birdəfəlik son qoydu: « Ermənistan Dağlıq Qarabağın müstəqilliyini tanımadı. Bu, o deməkdir ki, beynəlxalq hüquq nöqteyi-nəzərindən Dağlıq Qarabağ və ətrafdakı rayonlar Azərbaycan Respublikası ərazisinin ayrılmaz hissəsidir.» Daşnakların faşizmə xidmət edən millətçi ideologiyasını tarixin səhifəsindən silən Milli Ordumuzun 2016, 2018-ci illərdəki zərbələrindən dərs almayan Ermənistan faşistləri 2020-ci ili heç vaxt unutmayacaqlar. «Mən Ermənistana xəbərdarlaq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar» söyləyən Prezident İlham Əliyev başçılıq etdiyi Milli Ordumuzun şücaəti ilə tariximizə qalibə layiq qələbələr salnaməsi yazdı. Ay yarım davam edən əks –hücum əməliyyatları ilə Ermənistana, 30 il işğalçının faşist mahiyyətini dəstəkləyənlərə bildirildi ki, Azərbaycan xalqının səbri tükənməz deyil və torpaqlarımızın işğal altında qalmasına, Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaranmasına yol verilməyəcək. Tarixi həqiqətə, beynəlxalq hüquqa əsaslanan Milli Ordumuzun qüdrəti qarşısında diz çökən işğalçıya layiq olduğu zərbələr vuruldu.

Dünyada baş verən müharibələrin təcrübəsi göstərir ki, qüdrətli ordunun mövcudluğu, xalqla birliyi, dövlətin siyasi , iqtisadi qüdrəti, insanların həmrəyliyi və mübarizlik əhval-ruhiyyəsi istənilən qələbənin qazanılması üçün baslıca şərtdir. Bu sınanmış hikməti hakimiyyətə gəldiyi ilk gündən siyasətinin əsas istiqamətləri

kimi həyata keçirən Prezident İlham Əliyev dünyanı idarə edən dövlət başçıları arasında liderlik mövqeyini möhkəmləndirdi. Daim irəliyə baxdı.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində apardığı siyasəti, islahatları müasir dövrün tələblərinə uyğun davam etdirən Prezident İlham Əliyev Ali Baş Komandan kimi ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsinə, Silahlı Qüvvələrimizin ən müasir silah-sursatla, hərbi avadanlıqlarla təmin olunmasına xüsusi diqqət yetirməklə qələbə əzmində olan ordu formalaşdırdı. «Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbiçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu edəcəyik. Biz güclü, qüdrətli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə , vicdanla, cəsarətlə yerinə yetirir» sözləyən Prezident İlham Əliyevin sözlərini rəşədətli Milli Ordumuz döyüş meydanında hərbi üstünlüyü ilə təsdiqlədi. Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 gün davam edən müharibədə göstərdiyi döyüş taktikası ilə hamını təəccübləndirdi. Müasir dünya döyüş taktikasının modelinə malik olduğunu ortaya qoydu. Xalqımızın ordumuza inam və etibarı özünü doğrultdu. Haqqın və ədalətin bərpa edilməsi naminə başlanan müharibə xalq-iqtidar –ordu üçlüyünün qarşısıalınmaz yenilməz güc olduğunu bütün dünyaya bəyan etdi. Bütün dünya ictimaiyyəti müharibə dövründə xalqın gücünün hərb və müdafiə işinə səfərbər edilməsini gördü. 30 il işğal altında qalan Füzulini, Cəbrayılı, Zəngilanı, Ağdamı, Qubadlını, Kəlbəcəri, Laçını, Şuşanı, Hadrutu… düşməndən xilas edən Azərbaycan Ordusunun hər bir zabiti, əsgəri xalqımızın iftixar, qürur mənbəyinə çevrildi. Noyabrın 8-də Şuşanın, 9-da 70-dən artıq kəndin, 1 qəsəbənin, 8 strateji yüksəkliyin alınması, noyabrın10-da Ermənistanın ağ bayraq qaldıraraq kapitulyasiyaya imza atması tariximizə Zəfər həftəsi kimi yazıldı. Prezident İlham Əliyevin «Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir» sözləri Cıdır düzündə sərxoş halda yallı gedən Paşinyana, onu dəstəkləyən Fransaya, digər havadarlarına zərbə, tarixi dərs, türk qulaqburması oldu.

Butun dünya dəmir iradəyə malik Azərbaycan xalqının gücünü, birliyini, iradəsini, qələbə əzmini gördü. Bu birlik isə Azərbaycan Ordusuna güc-qüvvət verdi, tarixi qələbəyə aparan yola işıq saldı.

«Bölgəmizdə  yeni reallıq yarandı.  Bu reallığı biz yaratdıq. Azərbaycan yaratdı bu reallığı. Biz düşməni torpaqlarımızdan qovduq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik. Bu qətnamələr 27 il idi ki,  sadəcə olaraq, bir çoxları üçün  kağız parçası idi, təkcə Ermənistan üçün yox,  başaqaları  da. Biz deyirdik ki, beynəlxalq hüquq bizim tərəfimizdədir… Biz beynəlxalq hüquq praktikasında  və bölgəmizdə yeni reallıq yaratdıq» söyləyən Prezident İlham Əliyevin sözləri belə bir əminlik yaradır ki,  uzun illər siyasi, diplomatik  səyləri ilə qələbəyə nail olan  Azərbaycan gələcəkdə də  bölgədə formalaşacaq  əməkdaşlıq formatının müəllifi olacaq.

Azərbaycan, Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladıqları bəyanatda  Qarabağa heç bir statusun verilməyəcəyi, Naxçıvanla Azərbaycanın digər rayonları arasında  quru yolun bərpası ilə bağlı bəndin yer alması, Prezident İlham Əliyevin  «Heç kim bizim  qabağımızda  dura bilməz, bizə şərt qoya bilməz. Bizə müharibənin ilk günlərindən şərt qoymaq istəyən, hədələmək istəyən şərləmək istəyən ölkələrin,  bəzi Qərb ölkələrinin nümayəndələri sərt cavabımızı aldılar. Gördülər ki biz o ölkələrdən deyilik ki,  kiminsə qabağında  baş əyək və mən o liderlərdən deyiləm ki,  kimdənsə nə isə qəbul edim, hansısa sözü. Artıqlması ilə  cavab vermişəm və verəcəyəm lazım gəldikdə» sözləri Azərbaycan diplomatiyasının uğurudur.

«Qardaş Azərbaycanı  qətiyyən tək qoymarıq» söyləyən Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın, bütünlükdə türk xalqının müharibə dövründə Azərbaycan xalqına göstərdiyi dəstək bu sözlərdə də ifadəsini tapır: «Qafqaz mücadiləsində olduğu kimi, bu gün də azərbaycanlı qardaşlarımızın yanındayıq, yanında olacağıq.»

Hər ilin 8 noyabrında Zəfər Gününün qeyd olunması, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, işğaldan azad edilmiş torpaqlarımızda  quruculuq işlərinə başlanılması göstərdi ki, Azərbaycan döyüş meydanında, siyasi müstəvidə istənilən gücünü göstərmək , çətin sınaqlardan çıxmaq təcrübəsinə malik qüdrətli ölkədir.

Qələbə sevincini yaşayan Azərbaycan Zəfər bayramını Qələbə paradı ilə qeyd edir. Bu paradda qorxaq erməni silahlılarının  qoyub qaçdığı   döyüş meydanlarında qənimət kimi götürülən hərbi texnikanın,  avadanlıqların numayiş etdirilməsi, Xankəndidə Azərbaycan əsgərlərinin gəzməsi işğalçı Ermənistanın faşist ideologiyasına, Paşinyanın yeddi şərtinə vurulan zərbə, havadarlarına mesajdır. Azərbaycan xalqı tarixi qələbəyə aparan yolda inamla irəlilədi, məqsədinə nail oldu.  «Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!» sözlərini  Azadlıq meydanında təşkil olunacaq  hərbi paradda qalib kimi  söyləyəcək Milli Ordumuzun əsgərləri

cəsarətli, məğrur, qürurlu görkəmləri ilə dünya erməniliyinin əbədi məhvini təsdiqləyəcək, xalqımızın birlik və həmrəyliyinin sarsılmazlığını dünyaya bəyan edəcək. Həmin paradda Vətən müharibəsində, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş 2783 şəhidimiz də Zəfər paradında rühən də olsa silahdaşları ilə birgə olacaqlar.

Xuraman İsmayılqızı, «İki sahil»